# Azərbaycanlılara qarşı erməni cinayətləri, terroru və xəyanətlərini unutmamalıyıq...



İslam İbrahimov,
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Yazıçılar Birliyinin üzvü



Məmməd Səid Ordubadinin "Qanlı illər" (Bakı, 1991) tarixi kitabında (red. "Qanlı sənələr", 1911) qeyd olunur ki, 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davası nəticəsində 120 il bundan əvvəl ermənilərin azərbaycanlıların başına gətirdikləri müsibətlər, faciələr, fəlakətlər 10 noyabr 2020-ci il tarixinə kimi davamlı xarakter almışdır.

M.S.Ordubadi ermənilərin 120 il əvvəl müsəlmanlara qarşı törətdikləri faciəli hadisələri, ağlasığmaz cinayətləri aşağıdakı kimi ifadə edirdi:

*"Bu iğtişaşlara (İ.İ. erməni-müsəlman iğtişaşları) səbəb dörd şeydir.* <u>Birinci səbəb</u> *Erməni Daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etməsidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı... Ürək ağrıdan və yanıqlı xəbərlərin bir neçəsini göstərməklə kifayətlənirəm":*

*- 1905-ci il 8 noyabrda Gəncədə daşnaksütyunların müharibəyə çağırmaq üçün Bəhmənli sakinlərini təqsirsiz və günahsız öldürmələridir;*

*- Yenə Gəncədə bir iranlının bıçaqlanaraq daşnaksütyunlar tərəfindən öldürülməsidir;*

*- Gəncədə erməni hissəsi olan Qoşa çinar məhəlləsində Molla Cəlilli sakinlərinin daşnaksütyunlar tərəfindən güllələbaran edilmələridir;*

*- Gəncədə Amos Perovun dəyirmanında 12 noyabrda bir müsəlmanın daşnaksütyunlar tərəfindən öldürülməsidir;*

*- Qazax uyezdinə də general-qubernatorluq edən Levintskinin daşnaksütyun fəlakəti;*

*- Naxçıvan faciəsinə bir neçə gün qalmış bir nəfər müsəlmanın namaz qıldığı məqamda öldürülməsi və s.*

**<u>2-ci səbəb.</u>** Məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Rusiya inqilabına görə mərkəzi hökumətin başı özlərinə qarışdığından erməni-müsəlman iğtişaşlarını sakitləşdirmək üçün tədbirlər görmədilər. Qafqazın şəhərləri dağıdılır, yandırılır, yurdlar qan çalasına döndərilirdi. Naxçıvan uyezdinin naçalniki-rəisi Angil kimi vicdansızların fitnəkar hərəkətləri nəticəsində yanan atəşlər söndürülmədi, əksinə canilər bir sıra cinayətlərə sövq edildi. Angilin nalayiq hərəkətləri nəticəsində ermənilər Krılov kimi kazak komandanları ilə əlbir olub müsəlmanların dükanlarını yandırırdılar.

**<u>3-cü səbəb.</u>** Müsəlmanların elmsizliyi, silahsızlığı və siyasətdən bixəbər olmaları idi. Ermənilər hiylə və siyasətlə iş görür, Bakıda sülh elan edir, Şuşada müharibəyə başlayırdılar. Şuşada sülh edib, Gəncədə dağıntıya və yandırmağa, müsəlmanları əzməyə başlayırdılar.

Erməni-müsəlman iğtişaşlarının 4-cü səbəbi ermənilərin idarəetmə muxtariyyəti həvəsində olmalarıdır. Londonda, Parisdə, Amerikada, hətta Türkiyədə (Sasun, Van, Zeytun vilayətlərində) separatistlər əsassız xəyallar qururdular.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin 15 oktyabrında Türkiyənin NTV televiziyasına müsahibəsində qeyd edir ki, ***"...münaqişə Azərbaycan torpaqlarında gedir. Beynəlxalq hüquq baxımından bu, bizim torpaqlarımızdır, tarixi ədalət baxımından bu, bizim torpaqlarımızdır...".*** Münaqişə, təcavüz, terror, fəalkətlər həmişə, istər 100-200 il əvvəl, istər 1905-1906-cı illərdə və istərsə də 2021-ci ilə kimi bizim torpaqlarımızda olmuşdur. Biz heç kimin torpaqlarına təcavüz etməmişik. Ölkə prezidenti haqlı olaraq Ermənistanı terrorçu dövlət adlandırır. **"Bax Ermənistanın Ermənistan ərazisindən Gəncə şəhərinə törətdiyi xain hücüm göstərir ki, bu terrorçu dövlət hər şeyə əl ata bilər".** (44 gün anbaan... rəsmi xronika. (Bakı 2021. 648s. s.270-284).

Göründüyü kimi, erməni-müsəlman münaqişəsi M.S.Ordubadinin göstərdiyi 4 səbəblə yanaşı, həm də beynəlxalq təşkilatların ikili siyasəti və ermənilərin havadarlarının açıq-aydın dəstəyi ilə uzun müddət davam etmişdir.

Biz, 1905-1906-cı illərdə baş verən erməni-müsəlman münaqişəsinin - terrorunun qanlı faciəsi ilə əlaqədar unutmaq mümkün olmayacaq nümunələrə diqqət yetirək:

1905-ci ildə ermənilər Bakıda müsəlmanları sıxışdırmaqla acı, təhqiramiz sözlərlə münasibətləri kəsmək üçün pis rəftara başlamışdılar. O vaxtı məhəlli hökuməti isə erməni-müsəlman münasibətlərinin qarşısını almağa çalışmırdı. Ermənilər Bakıda müsəlmanları sıxışdırmağa başlamışdılar və fevralın 2-də Ağarza adlı müsəlman Quba meydanı adlanan yerdə öldürüldü. Fevralın 6-da ermənilər araya qarışıqlıq salaraq münasibətləri kəsdilər. Süni iğtişaş bomba partlayışı təsiri göstərdi, atışmalar başladı. Babayev adlı müsəlmanın naməlum rusu öldürməsi ilə əlaqədar hadisə hər iki tərəfin silahlara əl atmalarına səbəb olmuşdur. Gecə atışmalarından sonra səhəri küçələrdə öldürülən 13 nəfərin meyiti xəstəxanalara aparılmışdı. Bakının və oradakı zavodların hər yerinə iğtişaşlar sirayət etmişdi. Qadınlar uşağın əlindən tutub o tərəf, bu tərəfə sərkərdən qaçırdılar. Bu vaxtlar Balaxanıda böyük vuruşma və yanğın baş verirdi. Şəhərdə hər iki tərəfdə mağazalar, imarətlər dağıdılır, qarət edilirdi. Qarətçilərin çoxu İran fəhləsi, ermənilərdən isə Türkiyədən gəlmə daşnak könüllüləri idi. Atışmanın şiddətli vaxtı pristavlar kazaklardan kömək istəsələr də, onlar kömək etməmişdilər. Qanlı hadisələr böyüdükcə ermənilərin əlində öldürülmüş müsəlmanlar insaflı, ədalətli və etibarlı olmaqla insanlığını itirməyərək, erməniləri qətl-qarətdən mühafizə etmiş, hətta onlara yemək-içmək vermişlər. Həmin dövrdə küçələrdə ermənilər qan tökməkdə davam edir, ismətli-mürvətli qadınlarımız qonşularını - erməniləri hifz edirdilər.

***Həmin fevral hadisələrində (8 fevral) Bakı cəhənnəmə çevrilmişdi, uca mərtəbələrin, neft zavodlarının, butkaların yanğısından səmaya qalxan alovlar insanları çaşdırmışdı. Şəhər mühafizəsiz qalmışdı, qarətçilər müəssisələri, fabrikləri dağıdır, qarət etdikləri evləri yandırırdılar.***

Bakıda erməni-müsəlman toqquşmalarından sonra Naxçıvanda may ayında ermənilər müsəlmanları qorxu altında saxlayırdılar. Onlar hər tərəfə odlu silah və hərbi ləvazimat göndərirdilər. Müsəlmanlar gecələr ermənilərin qorxusundan küçəyə, gündüzlər isə uzağa gedə bilmirdilər. May ayının 5-də Cəhri kənd sakinləri olan müsəlmanlar erməni kəndi olan Şıxmahmud adlı yerdən keçəndə ağır yaralanırlar. Bu hadisə Naxçıvanda narahatlığa səbəb olur. May ayının 7-də bir nəfər müsəlman öldürülür. Səhəri gün İrəvan vitse-qubernatoru Baranovski şəhər başçısı Ağamalovla, Cəfərquluxan Naxçıvanski ilə Naxçıvana gəlirlər. İnsanlar ermənilərdən şikayətə başlayırlar. Cəhri müsəlmanları şikayət edirlər ki, kəndin yolları hər tərəfdən ermənilərin əlindədir. Xahiş edilirdi ki, yollar hökumət tərəfindən mühafizə edilsin. Ancaq şikayətlərin hamısı cavabsız qalırdı. Mayın 9-da naxçıvanlı müsəlman ermənilər tərəfindən yeddi güllə ilə qətlə yetirilir və bu, şəhərdə narahatlığa səbəb olur. Bir neçə gün sonra erməni kəndinin varlı bir sakini - Xaçatur erməni fədailəri tərəfindən ailəsi ilə qətlə yetirilir. Ermənilər bu qətli həyasızcasına müsəlmanların üzərinə atırlar. Həmin gün ermənilərdən çoxlu bomba aşkar olunur, onlar şəhəri atəşə tuturlar. Müsəlmanlar vitse-qubernatora yenə şikayət edəndə, o, "sizə atəş açanda tutub onların tapançalarını alın", -deyir. Heç kəsnə gözü qızmış ermənilər, nə də özünü itirmiş müsəlmanlar soruşmurlar ki, cənab qubernator bəs buraya nə üçün gəlmisiniz? Naxçıvanın polis rəisi Angil ermənilərin güllə atışması və talan vaxtı heç nəyə mane olmurdu. Əksinə atəş vaxtı "tez vur", talan vaxtı "tez apar" deyə insanları daha da qızışdırırdı. Səhəri gün Cəhri kəndində qətl-qarət başlanır. Ermənilər müsəlmanlara qraşı hər gün hiylə, problemlər çıxarırdılar. Naxçıvan camaatı zülm və əziyyət altında əzilirdilər. Kazaklar və ermənilər əlbir olub müsəlman bazarını qarət edəndən sonra od vurmuşdular. Bu isə şəhərə vəlvələ salmışdı, ədəbsiz kazaklar yolları kəsmişdilər. 85 dükan, 75 anbar tamam yanmışdı, camaat ərzaq tapa bilmirdi, gərgin ehtiyac içində qalmışdılar. Kazaklar çox vaxt fitnə-fəsadların təşkilatçıları olmuş, köməksiz insanların şikayətlərinə məhəl qoyan olmamışdı.

Bakı və Naxçıvanda baş vermiş faciələr İrəvan quberniyasında erməniləri qəzəbləndirmiş və onlar müsəlmanlar əleyhinə çirkin hərəkətlərini artırmışdılar. Ermənilər Naxçıvanda məğlubiyyəti qəbul edə bilmir, hiylə və fırıldaqlara əl atırdılar, növbəti iğtişaşlar üçün tədarük görür, iğtişaşa hazırlaşırdılar.

1905-ci ilin 23 mayında üç nəfər müsəlman gənci sərxoş olanda, ermənilər onları döymüşdülər. Bu gənclər sərxoş vəziyyətdə səs-küylə bazara daxil olanda erməni və müsəlmanlar bir-birinə qarışır, şiddətli atışma başlayır. Səhəri gün nadanlıq üzündən bazarda dükanı açmağa gedən müsəlmanlara ermənilər atəş açırdılar. Bütün günü ermənilər ürəkləri istədiyi qədər atəş açır, müsəlmanların uşağı, qocası, arvadı, varlısı, kasıbı isə çətin vəziyyətdə idilər. **Bu atışmalarda müsəlmanların fəryadına səs verən yox idi. Ermənilərə inanıb təhlükəli məhəllələrdə qalan dörd qadın, iki uşaq və beş kişi - cəmi 11 müsəlman qətlə yetirilmişdi. Bunu görən müsəlman könüllüləri ermənilərin üstünə yürüş etmişdilər. Yaxşı silahlanmış erməni əsgərlərinin çoxu xidməti başa vurmuş əsgərlər idi və onlara daşnaksütyun döyüşçüləri kömək edirdi. Ermənilərlə müsəlmanların gediş-gəlişi kəsilmişdi. Ermənilər müsəlman imarətlərini atəşlə hədə altında saxlayırdılar. Müsəlmanların imkanlı adamları başqa yerlərə köçür, canını üstün tutan imkansızlar isə ürəklərini ovuşdurur, fəryad içində göz yaşları axıdırlar.**

Ermənilər 31 iyunda Gözəçik kəndini şiddətli atəşə tutanda insanlar qonşu Mənkus kəndinə köçmüşdülər. Burada qoca Novruz Kazım oğlu camaatı başqa millətlərin yanında başı aşağı olmamağa səsləyirdi, ermənilərin qarşısından qaçmamağa çağırırdı. O deyirdi ki, qaçdıqca ermənilər daha çox rəva görülməmiş hörmətsizlik edəcək, daha cürətli olacaqlar. Beləliklə, Novruz kişi ermənilərin qarşısına qoşalülə tüfənglə çıxır, onları geri çəkilməyə məcbur edir. Ermənilər Novruz kişini əsir götürür, məscidi, minbəri, müqəddəs kitabları, Novruzun evini yandırır, onu erməni kəndinə aparıb başını kəsirlər.

İyulun 2-də 10 minlik erməni alayı müsəlmanların pənahgahı olan Mənkus kəndinə hücum edirdilər. Silahsız insanlar kənddən qovulur, kəndlər isə boşaldılır. İrəvan iğtişaşlarından məlum olur ki, müsəlmanlar döyüş silahlarından məhrum olmuşlar və onlar hərbi işi yaxşı bilmirlər, əslində köməksiz qalmışdılar.

Eçmiədzin mahalında erməni dəstələrinin qarşısında əlində xaç olan erməni keşişi dururaq, onları müsəlmanlara qarşı iğtişaşa ruhlandırır, vəhşi ermənilər körpələri, qocaları, qadınları qətlə yetirirdilər. Ermənilər məscidləri, müqəddəs kitabları, imarətləri dağıdır, yandırırdılar, iyunun 10-da Eçmiədzində 9 müsəlman kəndi dağıdılmışdı, hökumət isə heç bir tədbir görməmişdi.

*(davamı gələn sayımızda)*